**Azərbaycan Respublikası adından**

**Q Ə T N A M Ə**

İş № 2(103)-     /2019

“     ”          2019-cu il                                                                                Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin mülki kollegiyası

Hakimlər Raqib Əliddin oğlu Qurbanovun sədrliyi və məruzəsi ilə, Etibar Qəzənfər oğlu Nəbiyev və Aida Əli qızı Hüseyndən ibarət tərkibdə,

məhkəmə iclas katibi Nofəl Rəhman oğlu Abdullayevin katibliyi ilə,

iddiaçı XXXX oğlunun və cavabdehin nümayəndəsi XXXX qızının iştirakı ilə,

Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 2(011)-        /2018 saylı mülki iş üzrə qəbul etdiyi 01 oktyabr 2018-ci il tarixli qətnaməsindən cavabdeh “XXXX” İstehsalat Birliyi tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən mülki işə Bakı Apellyasiya Məhkəməsinin binasında, açıq məhkəmə iclasında baxaraq,

**m ü ə y y ə n   e t d i**

İddiaçı XXXX oğlu cavabdeh “XXXX” İstehsalat Birliyinə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cərimə kimi tələb olunan 1400 manatın və qaz sayğacına görə 213 manat borcun “XXXX” İB tərəfindən silinməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 01 oktyabr 2018-ci il tarixli 2(011)-     /2018 saylı qətnaməsi ilə iddia qismən təmin edilərək, cavabdeh “XXXX” İstehsalat Birliyi tərəfindən iddiaçı XXXX oğlunun XXXX saylı abonent hesabına itirilmiş qazın bərpası üzrə hesablanmış 1317,6 manat və sayğacın dəyərinə görə tələb olunan 212,28 manat məbləğində borcun silinməsi və iddia tələbinin qalan hissədə təmin edilməməsi, cavabdeh “XXXX” İstehsalat Birliyindən 30 manat dövlət rüsumunun alınaraq Azərbaycan Respublikasının dövlət büdcəsinə ödənilməsi qət edilmişdir.

Cavabdeh “XXXX” İstehsalat Birliyi apellyasiya şikayəti verərək, həmin qətnamənin ləğv edilməsi və iddianın rədd edilməsini xahiş etmişdir.

Apellyasiya şikayətində işin faktiki halları göstərilmiş və əlavə olaraq qeyd olunmuşdur ki, birinci instansiya məhkəməsi maddi və prosessual hüquq normalarını pozmuş, işin hallarını tam və hərtərəfli araşdırmamışdır.

Məhkəmə iclasında cavabdehin nümayəndəsi XXXX qızı apellyasiya şikayətini müdafiə etdi, iddiaçı XXXX oğlu isə apellyasiya şikayətinə etiraz etdi.

Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya şikayəti təmin edilməməlidir.

Belə ki, iş materiallarından müəyyən olunur ki, iddiaçı ilə cavabdeh arasında təbii qazın alqı-satqısı müqaviləsi bağlanmışdır. İddiaçının yaşadığı mənzildə quraşdırılmış sayğaca “XXXX” İB-nin nümayəndələri tərəfindən baxış keçirilmiş və sayğac çıxarılaraq, yeni qaz sayğac quraşdırılmış, mənzildən çıxarılmış sayğac dövlət yoxlamasından keçirilməsi üçün “XXXX”nə göndərilmişdir. Həmin idarənin laboratoriyasında sayğac yoxlanılan zamanı istehlakçının istifadəsində olmuş qaz sayğacının çıxış plastmas borunun deşilməsi aşkar olunmuşdur. Cavabdeh tərəfindən itirilmiş qazın dəyərini təşkil edən 1317,6 manat, sayğacın dəyərini təşkil edən 212,28 manat iddiaçıdan tələb olunmuşdur.

İddiaçı bildirir ki, həmin sayğaca onun tərəfindən heç bir müdaxilə edilməmişdir.

Cavabdeh iddiaya etiraz edir və bildirir ki, sayğaca müdaxilə olunduğuna görə itirilmiş qazın və sayğacın dəyəri iddiaçı tərəfindən ödənilməlidir.

Məhkəmə kollegiyası hesab edir ki, iddia qismən əsaslıdır.

Belə ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 12 may 2011-ci il tarixli 80 N-li qərarı ilə təsdiq edilmiş «Qazdan istifadə Qaydaları»nın 4.9-cu bəndinə görə istehlakçının təqsiri olmadan zədələnmiş qaz sayğacının təmir olunması, texniki baxışdan keçirilməsi, dəyişdirilməsi (yenisi ilə əvəz edilməsi) və quraşdırılması bu Qaydaların 4.2-ci bəndinə uyğun olaraq, zədələnmə istehlakçının təqsiri üzündən baş verdikdə isə istehlakçının vəsaiti hesabına qaz paylayıcısı tərəfindən həyata keçirilir. Qaz paylayıcısı tərəfindən qaz sayğacının dəyişdirilməsi, təmir olunması və ya texniki baxışdan keçirilməsi istehlakçıdan tələb edildikdə, bu halda qaz paylayıcısı tərəfindən həmin tələbin hüquqi əsası göstərilməlidir. Qaz sayğaclarının növbəti texniki baxışının keçirilməsi onların texniki pasportlarında göstərilmiş müddətdə həyata keçirilir. Qaz sayğaclarının növbəti texniki baxışdan keçirilməsinə görə istehlakçılardan vəsait tələb etmək qadağandır. İstehlakçının arzusu ilə qaz sayğacının texniki baxışdan keçirilməsinə görə istehlakçı vəsait ödəməlidir.

Lakin cavabdeh tərəfindən qaz sayğacının çıxış plastmas borunun deşilməsinin səbəbkarının məhz iddiaçı olmasını təsdiq edən sübutlar təqdim edilməmişdir.

Halbuki həm Mülki Prosessual Məcəllənin 77.2-ci maddəsi, həm də qeyd olunan Qaydaların 4.9-cu bəndinin 2-ci cümləsinə görə bu halı sübut etmək vəzifəsi cavabdehin üzərinə düşür.

Belə olan halda isə itirilmiş qazın dəyərini təşkil edən 1317,6 manat və sayğacın dəyərini təşkil edən 212,28 manat iddiaçıdan tələb oluna bilməz.

Cavabdehin dəlilləri isə əsassızdır. Belə ki, Mülki Prosessual Məcəllənin 77.2-ci maddəsinin tələblərinə görə dövlət orqanlarının, icra və s. orqanların aktlarının etibarsız hesab edilməsi barədə mübahisələrə baxıldıqda həmin aktların qəbul edilməsi üçün əsas olmuş halları sübut etmək vəzifəsi bu aktı qəbul etmiş orqanın üzərinə düşür. Lakin cavabdeh üzərinə düşən sübut etmə vəzifəsini yerinə yetirə bilməmiş və iddiaçı tərəfindən sayğaca müdaxilə edilməsini təsdiq edən sübutları təqdim etməmişdir.

Beləliklə, məhkəmə kollegiyası belə nəticəyə gəlir ki, birinci instansiya məhkəməsinin qətnaməsi qanuni və əsaslı olmaqla işin hallarına uyğundur, apellyasiya şikayətində irəli sürülən dəlillər isə əsassızdır və mahiyyətcə düzgün olan birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır.

Həmçinin iddianın qiymətinin iki min manatdan az olduğunu nəzərə alaraq və Mülki Prosessual Məcəllənin 404-1-ci maddəsini rəhbər tutaraq kollegiya qeyd edir ki, hazırkı qətnamədən kassasiya şikayəti verilə bilməz.

Göstərilənlərə əsasən və Mülki Prosessual Məcəllənin 384.0.1, 392, 393, 404-1-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

**Q ə t  e t d i:**

Cavabdeh “XXXX” İB tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilməsin.

Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 2(011)-      /2018 saylı mülki iş üzrə qəbul etdiyi 01 oktyabr 2018-ci il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qətnamədən kassasiya şikayəti verilə bilməz.

Sədrlik edən: Raqib Qurbanov

Hakimlər: Etibar Nəbiyev

Aida Hüseyn